***❐ Goranboyun maraqlı coğrafi mövqeyi var – bir tərəfi Murova, onun başıqarlı dağlarına söykənir, bir tərəfi isə arana qədər uzanır. Başqa sözlə desək, bir tərəfdə qış, bir tərəfdə yaydır. Bu, əlbəttə, dağlar, meşələr, çaylar, bir sözlə, təbiət gözəllikləri baxımından maraqlı olsa da, təsərrüfat işləri, əkin-biçin cəhətdən müəyyən çətinliklər yaradır. Məsələn, çiyid səpini zamanı aranla dağ arasında, ən azı, bir həftə–on gün fərq olur. Deməli, yerlərdə işin təşkili, əlverişli keçən hər günün, hər anın qədrini bilmək olduqca vacibdir.***

# Goranboy: dağlardan düzə endik...

## Orada da, burada da hamını iş üstündə, əkində-biçində gördük



Biz rayona axırıncı səfərimizdə məhz belə bir işgüzarlığın, mütəşəkkilliyin şahidi olduq. Daha doğrusu, çiyid səpini kampaniyası, demək olar ki, eyni vaxtda başlayıb, eyni vaxtda da başa çatmışdır. İndi tarlalarda ilk becərmə tədbirlərinə başlanılmışdır.

Ümumiyyətlə, qeyd edək ki, Goranboy respublikamızın ənənəvi pambıqçılıq rayonlarından biridir. Ötən əsrin 70–80-ci illərində burada 40 min tondan çox "ağ qızıl" istehsal olunurdu. Bəsti Bağırova, Manya Kərimova, Mansır Kərimov və başqa adlı-sanlı əmək qəhrəmanları dillər əzbəri idi. O da sevindiricidir ki, hazırda rayonda həmin ənənələri bərpa etmək, itirilmiş şöhrəti geri qaytarmaq üçün bütün imkan və səylər səfərbər olunub. Nəticə isə göz qabağındadır.



Rayon icra hakimiyyətindən bizə verilən arayışda göstərilir ki, ötən il rayonda 2 min hektarda pambıq yetişdirilmiş, 3673 ton məhsul təhvil verilmişdir. Builki göstəricilər isə belədir: əkin sahələri 5 min hektara çatdırılmışdır. Mütəxəssislərin, təcrübəli fermerlərin hesablamalarına görə, tarlalardan 12 min ton "ağ qızıl" götürüləcəkdir. Onu da öyrəndik ki, rayon üzrə 38 inzibati ərazi dairəsində pambıq əkilmişdir. Qızılhacılı, Borsunlu, Səfikürd, Xanqərvənd, Goranlı kəndlərinin ərazilərində daha çox pambıq əkilmişdir.






***Pambıq əkini, becərilməsi və qəbulu ilə üç emal müəssisəsi məşğul olur: "CTS Aqro", "MKT MMC" və Dəliməmmədli pambıq zavodları. Fermerlərlə, kənd adamları ilə ən çox müqavilə bağlayan təşkilat isə "CTS Aqro"dur. Müəssisənin direktoru Siyavuş Qurbanov işlərin gedişi haqqında danışarkən bildirdi:***

– Fermerlərlə 2500 hektarda müqavilə bağlamışıq. Maşın-mexanizm, gübrə, yanacaq və s. cəhətdən heç bir çətinliyimiz yoxdur. Hər şey müqavilə şərtləri əsasında aparılır. Bu isə, əlbəttə, kənd adamlarını ruhlandırır, onları daha yaxşı işləməyə həvəsləndirir. Səpin kampaniyasını ən qısa müddətdə başa çatdırdıq. Hər yerdə normal çıxış alınmışdır. Hələlik havalar olduqca əlverişli keçir. Ona görə də artıq ilk becərmə tədbirlərinə başlamışıq.

***Goranboyda hamı Arifə Tapdıqovanı qabaqcıl fermer kimi tanıyır. Bu, heç də təsadüfi deyil. Uzun illərdir ki, sahələrdən bol məhsul götürür. Söhbət zamanı dedi:***

– Ötən il 50 hektarda pambıq yetişdirmişdik. Bu il isə əkin sahələrini 82 hektara çatdırmışıq. Heç şübhəsiz ki, gələcək illərdə bu rəqəm daha çox olacaqdır. Bilirsinizmi nəyə görə? Ona görə ki, dövlət səviyyəsində bizə diqqət və qayğı var. Ötən il Sabirabadda, bu il isə Saatlıda ölkə Prezidenti İlham Əliyevin sədrliyi ilə respublikada pambıqçılığın inkişafı məsələlərinə həsr olunmuş müşavirələr bizə qol-qanad verdi, daha yaxşı işləməyə ruhlandırdı.

Qabaqcıl fermer onu da əlavə etdi ki, bu il hər hektardan, ən azı, 35 sentner məhsul yığılacaqdır.

***Borsunlu kəndinə gedib, Elxan Məmmədovla tanış olmamaq düz olmaz. Ona görə ki, pambıqçılıq sahəsində zəngin təcrübəyə malikdir. Söhbət zamanı özü bu barədə belə dedi:***

– İndi əvvəllər olduğu kimi, iri təsərrüfatlar–kolxozlar, sovxozlar yoxdur. Əkin-biçin sahələri, demək olar ki, pay torpaqlarından ibarətdir. Düzdür, iri fermer təsərrüfatları da yaradıblar. Ancaq nəzərə almaq lazımdır ki, bu hələ o qədər də çox deyil. Demək istəyirəm ki, indi əsas məsələ əkin sahələrini genişləndirmək yox, məhsuldarlığı artırmaqdır. Kənd adamları, fermer və sahibkarlar daha çox bu barədə düşünməli, torpaq və iqlim şəraitinə uyğun sortlar əkməli, aqrotexniki tələblərə ciddi əməl etməlidirlər. Biz bax bu yolla gedirik. Nəticələrimiz də ildən-ilə artır. Məsələn, ötən il 46 hektarda məhsuldarlıq 18 sentner idisə, bu il 75 hektardan, ən azı, 40 sentner pambıq götürməyi planlaşdırmışıq. Heç şübhəsiz ki, bu rəqəmi yaxın illərdə daha da artıracağıq. Bu isə bizə imkan verir ki, digər kənd təsərrüfatı bitkilərinin əkin sahələrini azaltmayaq.

Biz burada kənd təsərrüfatında, daha doğrusu, pambıqçılıqda işlərin gedişi barədə danışdıq. Yeri gəlmişkən, qeyd etməyə dəyər ki, Goranboyda iqtisadi, sosial-mədəni sahədə də inkişaf və irəliləyiş ardıcıl xarakter daşıyır. Bunu təkcə cari ilin ötən ayları ərzində qazanılmış uğurlar da bir daha sübut edir. Məsələn, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin inzibati binasının tikintisi başa çatmaq üzrədir. Goranboy və Dəliməmmədli şəhərlərində, Xan-qərvənd, Tatarlı və Səfikürd kəndlərində şəhid ailələri və Qarabağ əlilləri üçün fərdi yaşayış evləri tikilir. Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun tikintisi Dövlət Proqramına salınmış, işə başlanılmışdır.

37,75 kilometr uzunluğunda Goranboy-Yuxarı Ağcakənd avtomobil yolunun yenidən tikintisi ilə bağlı ölkə Prezidentinin müvafiq sərəncamı ilə ayrılmış vəsait hesabına yolun 34 kilometr hissəsinə asfalt-beton örtük salınmışdır. Tikintinin başa çatdırılması üçün 2,2 milyon manat əlavə vəsait ayrılmışdır, işə yaxın vaxtda başa çatdırılacaqdır.



Goranboy şəhərində 22 çoxmənzilli yaşayış binası var. Əvvəlki illərdə binaların bəzilərində təmir işləri aparılmış, dam örtükləri dəyişdirilmişdir. Lakin şəhərdəki əksər binalar uzun illər təmir olunmadığından dam örtükləri və fasad hissələri pis vəziyyətə düşmüşdür ki, bu da şəhərin arxitektura görünüşünə ciddi xələl gətirir. Ölkə Prezidentinin tapşırığına əsasən, birinci rübdə bu binalardan 12-nin təmirinə başlanılmışdır.

Yolların təmiri üçün tender keçirilmişdir. Şəhərin Xaqani, Ş.Qurbanov, Vaqif, Vidadi, H.Z.Tağıyev, E.Süleymanov, N.Nərimanov, P.Zeynalov, Əzizbəyov, C.Məmmədquluzadə, Z. Əliyev, M.F.Axundov küçələrinə asfalt örtük salınmasına başlanılmışdır. Şəhər ərazisində və avtomobil yollarının kənarında 10 minədək ağac əkilmişdir.

Ölkə iqtisadiyyatının gücləndirilməsi, əhalinin məşğulluğunun təmin edilməsi üçün tədbirlər davam etdirilir. Bu məqsədlə rayonda 5000 hektarda pambıq, 6 hektarda tütün əkilməsi, 4 ton barama istehsalı nəzərdə tutulmuşdur. Bu isə ötən illə müqayisədə əhalinin məşğulluğunun iki dəfədən çox artması deməkdir.

Ölkə Prezidentinin tapşırığına əsasən, Şəmkir maşın kanalının ikinci hissəsinin tikintisində işlər sürətlə davam etdirilir. Artıq kanaldan Dəliməmmədli şəhəri ərazisindək suyun verilməsi təmin edilmişdir. Bununla da kanal altında yerləşən 8 yaşayış məntəqəsində əkinlərin suvarma suyu ilə təminatı, əsasən, həll ediləcəkdir. Kanalın növbəti hissəsinin tikintisi də davam etdiriləcəkdir. Ümumiyyətlə isə kanalın istifadəyə verilməsi ilə əlavə 17 min hektar əkinəyararlı torpaq sahəsinin su təminatı yaxşılaşacaqdır. Normal su təminatı isə iri fermer təsərrüfatlarının yaradılmasına təkan verəcək, məhsul istehsalını əhəmiyyətli dərəcədə artıracaqdır.

Bu kanaldan, eyni zamanda, Aqroparka da su kəməri çəkiləcəkdir. Hazırda respublika üzrə yaradılan 33 aqroparkdan biri olan bu müəssisəyə 4695 hektar torpaq sahəsi ayrılmışdır. Burada taxıl, pambıq, texniki bitkilərin əkilməsi, meyvə bağlarının salınması, logistika mərkəzinin, emal müəssisələrinin və soyuducu anbarın tikilməsi nəzərdə tutulmuşdur. Aqroparkın fəaliyyəti rayonda məhsul istehsalına güclü təkan verməklə yanaşı, xeyli sayda yeni iş yerinin yaradılmasına da səbəb olacaqdır.

***Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyevin Alpoud kəndində səyyar qəbulunda mən də iştirak edirdim. Sözün düzü, elə bilirdim ki, hər halda, bir neçə saat davam edən səyyar qəbuldan sonra rayon mərkəzinə qayıdacağıq. Ancaq belə olmadı. İcra başçısı:***

– İndi yaz-tarla işlərinin ən qızğın çağıdır, dedi. – Bura gəlmişkən ətraf kəndlərdə də işin gedişi ilə tanış olarıq. Axırda da Şəmkir maşın kanalına baş çəkərik...

Bağçakürd, Ağamalı, Fəxralı, Hazırəhmədli kəndlərinin pambıq tarlaları... Biz hələ taxıl, çuğundur, tütün sahələrini demirik. Artıq torpaqdan boy verən zərif pambıq kolları adamın üzünə gülür. Hamı elliklə çöllərdə, iş üstündədir. Hərə bacardığı işin qulpundan yapışır, əkib-becərir, ürəklə, həvəslə çalışır. Onlar yaxşı bilirlər ki, gələcək bol məhsulun əsası indidən qoyulur. Bol qazanc, yaxşı gəlir əldə etmək üçün yaxşı da işləmək lazımdır.





Qəlbi qoynunda yaşayıb çalışdıqları bu çöllər qədər geniş olan sadə, zəhmətkeş insanları minnətdarlıqla salamladıq, onlara "işiniz avand olsun" dedik. Qarşıda isə bizi yeni ünvanlar, yeni insanlar gözləyirdi.

Mən burada şahidi olduğum bir günün, daha doğrusu, bir neçə saatın qısa təəssüratından danışdım. İcra başçısı üçün isə bu, adi iş günü, gündəlik həyat normasıdır. Görünür, son illər Goranboyda həyatın bütün sahələrində əldə edilmiş böyük uğurların, dinamik inkişaf və yüksəlişin bir səbəbi də elə burdadır – çevik, operativ iş üslubu, daim adamlar arasında olmaq, yenilik, təşəbbüskarlıq...

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***